# Pasxa - Dirilmə bayramı

(Əvvəli 4-cü səhifədə).



Pasxa çörəyi (kulich) və digər şirniyyatlar pravoslav icmalarında hazırlanır. Pravoslav ənənəsində "kulich" adlı şirin çörək bişirilir. Üzəri bəzədilir və kilsədə mübarək edilir. Kilsə ayinləri və dualar: İsa Məsihin dirilməsi münasibətilə keçirilir. Bayram günü kilsələrdə ayinlər keçirilir, insanlar bir-birini "Xristos dirildi!" - "Həqiqətən dirildi!" sözləri ilə salamlayır.? Bu, İsa Məsihin dirilişinə olan inamı və sevinci paylaşmağın bir yoludur. Pasxa Gecəsi (bəzən "Pasxa Vigil" deyilir) çox vacib bir mərasimdir: Ayinlər şənbə axşamı başlayır və bazar gününə keçid zamanı (gecəyarısı) İsa Məsihin dirildiyi elan olunur. Kilsədə mumlar yandırılır, bu işıq İsa Məsihin nuru və həyat gətirməsini simvolizə edir. Bu il Pasxa bayramı həm Qərb (katolik və protestant), həm də Şərq (pravoslav) xristian kilsələri tərəfindən 20 aprel bazar günü qeyd olunub. Bu, nadir hallarda baş verən bir hadisədir, çünki adətən bu iki təriqət Pasxanı fərqli tarixlərdə qeyd edir.

Pasxa bayramı Qəbələ rayonu Nic qəsəbəsindəki "Cotari" alban-udi pravoslav kilsəsində də qeyd edilmişdir. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Azərbaycan Respublikası Alban-Udi Xristianları İcmasının rəhbərliyi, icmanın üzvləri və qəsəbə sakinləri iştirak etmişdir. Alban-Udi Xristianları İcmasının sədri Robert Mobili çıxışında 200 ildən sonra müqəddəs Qüds şəhərindən “Müqəddəs Alov”un Cotari kilsəsinə gətirilməsinin qəsəbə sakinləri tərəfindən böyük sevincə səbəb olduğunu diqqətə çatdıraraq, xalqımıza xas zəngin tolerantlıq ənənələrinin, multikultural dəyərlərin təbliği və təşviqinin ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu, rayonumuzda yaşayan müxtəlif dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq və mehriban qonşuluq şəraitində yaşadığını qeyd etmiş və azsaylı xalqlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir. Sonda bayram münasibətilə şamlar yandırılmış, dualar oxunmuşdur.

**“Qəbələ”**

# Qəbələ - Xankəndi marşrutu üzrə Ultramarafon qaçışı



Aprel ayının 10-da 2025-ci il üçün idman paytaxtı seçilmiş Qəbələdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Atletika Federasiyası, Bakı Şəhər Halqası, “Zəfər” qaçış klubu və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən “Qəbələ - Xankəndi” marşrutu üzrə ultramarafon qaçışına start verilib. Qəbələ şəhər Heydər Əliyev parkında təşkil olunan tədbirin rəsmi hissəsi Azərbaycan Dövlət Himninin səslənməsi və Ümummilli Lider Heydər Əliyevin, ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova qonaqları salamlayaraq ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan idman və gənclər strategiyasının bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, beynəlxalq miqyaslı tədbirlərə - dövlət başçılarının iştirakı ilə keçirilən zirvə toplantılarına, görüşlərə, sammit və forumlara, beynəlxalq idman yarışlarına ev sahibliyi edən Qəbələnin 2025-ci il üçün “Azərbaycanda İdman Paytaxtı” seçilməsi ilə yanaşı həm də MDB ölkələri arasında “Gənclər Paytaxtı” seçildiyini diqqətə çatdırmış və idmançılara uğurlar arzulamışdır. Çıxış edən Milli Məclisin deputatı, Azərbaycan Atletika Federasiyasının vitse-prezidenti Könül Nurullayeva ardıcıl ikinci dəfə keçirilən ultramarafonun yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, yarış iştirakçılarının marşrutun 3-cü günü Bərdədən Ağdamadək 44 kilometr məsafə qət edəcəklərini və bu rəqəmin Vətən müharibəsində qazanılan zəfərlə əlaqədar rəmzi məna daşıdığını diqqətə çatdırmışdır. Digər çıxış edənlər ultramarafona marağın ildən-ilə artdığını, bu cür yarışların bölgələrdə idmanın inkişafına böyük təkan verdiyini bildirmişlər. “İdman Paytaxtı Qəbələ”- dən start götürən marafona Azərbaycan,Türkiyə, Ukrayna, Rusiya, Moldova və Gürcüstandan 81 nəfər atlet qatılıb. 10-13 aprel 2025-ci il tarixlərdə keçiriləcək marafonda iştirakçılar 192 km məsafəni qət edərək Xankəndidə finişə çatmışlar.




**Fotolar S. Umuyevindir.**

# Konstitusiya və suverenlik - fəal vətəndaşlıq mövqeyi

Dövlət başçısının Azərbaycanda 2025-ci ilin “Konstitusiya və Suverenlik ili” elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli Sərəncamı ulu öndərin bilavasitə rəhbərliyi ilə 1995-ci il 12 noyabr tarixində qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyasının 30 illiyi və 2020-ci ildən Müzəffər Ordumuzun rəşadəti ilə torpaqlarımızın azadlığının bərpasının 5 illiyinin təntənəsidir. Bu sərəncam Azərbaycan tarixində 2025-ci ili xüsusilə yaddaqalan səhifəyə çevrilməsində və dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Yaşadığımız tarixə, keçdiyimiz o çətin günlərə nəzər salmaq, unutmamaq, yaşatmaq və gələcək nəsillərə ötürmək, xalqımızın milli birliyinin təzahürü olaraq dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan sərəncam keçmişimizə ehtiram kimi böyük əhəmiyyətə malikdir. Bu Sərəncam “keçmişini unutmadan gələcəyini düşünən xalq” ifadəsinin tarixi möhrünü vurdu, ölkəmizin tarixi keçmişi, bu günü və gələcəyi üçün böyük dəyər kimi qiymətləndirilir. Hər bir xalq müstəqil, hüquqi dövlətçilik və suverenliyi mövcud olan güclü dövlətin vətəndaşı olmaq və bu yolda mübarizə aparmaq əzmindədir. Bildiyimiz kimi, hər bir dövlətin Konstitusiyası, Suverenliyi ən vacib amillərdəndir. Dövlətin möhkəmliyi, əsaslı şəkildə hüquqi və siyasi cəhətdən formalaşması, vətəndaşına etibarlı bünövrə irs kimi bəxş etmək və qanuni şəkildə tətbiqi davamlı inkişafa gedən yolun başlanğıcıdır. Bu baxımdan möhtərəm prezidentimiz İlham Əliyevin bu Sərəncamı yaşadığımız tarixə bir nəzər, “Konstitusiya və Suverenlik İli” elan edilməsi dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır.

Azərbaycan artıq bir müstəqil dövlət olaraq suverenliyi üçün hüquqi-siyasi, sosial-iqtisadi fundament formalaşdırmış, beynəlxalq arenada hərtərəfli inkişaf addımlarını və bu addımlardan əldə etdiklərini nümayiş etdirmək üzrədir. Xüsusi vurğulamaq lazımdır ki, bu inkişafın ilk addımları ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə başlanılmışdı. Həmin dövrdə Heydər Əliyev hər bir sahədə mədəni, hərbi, maarifçilik və iqtisadi inkişafa gedən uğurlu yolun başlanğıcını qoydu. Bu başlanğıc hazırki günümüzdə potensiallarımızın nəticəsi olaraq səciyyələndirilir və müstəqillik illərində də dövlətçilik ənənələrimiz üçün çox mühüm rol oynadı. Müdrik siyasətçi Heydər Əliyevin birinci hakimiyyəti illərində azərbaycanlı tələbələrin xaricdə təhsil alması, müxtəlif sahələrdə yerli kadrların yetişdirilməsi, həmçinin milli soykökə qayıdış, o cümlədən xalqın əldə etdiyi maddi-mənəvi sərvətlərin mühafizəsi üçün muzey sahəsində də bir çox mühüm işlər həyata keçirildi.

Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə ümumilikdə nəzər saldıqda görürük ki, Azərbaycana rəhbərliyinin birinci dövründə qeyri-adi idarəçilik bacarığı, məqsədyönlü və uzaqgörən siyasəti, əzmkarlığı, yüksək vətənpərvərliyi sayəsində, çox qısa zaman ərzində respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında nailiyyətlər əldə edilmişdir. Bütün bunlar indiki müstəqil Azərbaycanın formalaşması üçün böyük bir başlanğıc, uğura uzanan yola ilk addımlar idi. 1969-cu il 14 iyul tarixindən sonra Azərbaycanın dinamik inkişafı üçün güclü təkan oldu. Mədəniyyət, sənaye, təhsil, tibb sahəsində, o cümlədən iqtisadi inkişafın ilkin mərhələsinin əsası qoyuldu. Hərbi sahədə ilk addımlar da məhz ulu öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində 1971-ci ildə atıldı. Bu ildə Azərbaycanda ilk hərbi məktəb yaradılmış və burada azərbaycanlı uşaqlar təhsil alaraq, sonradan keçmiş SSRİ-nin ali hərbi məktəblərinə daxil olmaq, zabit peşəsinə yiyələnmək imkanı əldə etmişlər. Bu gün Azərbaycan Ordusunun sıralarında vaxtilə C.Naxçıvanski adına hərbi liseyi bitirmiş yüzlərlə zabit, general xidmət etmiş, Qarabağ döyüşlərində də böyük bacarıq və şücaət göstərmişlər. 2020-ci ilin ən böyük şərəfli tarixinin başlanğıcı məhz həmin ildə hərbi strategiyanın təməlinin qoyulmasına bağlı amildir.

Ulu öndər Heydər Əliyev hər iki hakimiyyəti illərində Azərbaycanın sosial-iqtisadi inkişafına böyük töhvələr bəxş etmiş, həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində milli dövlətçilik ideyası ənənəvi şəkildə bərqərar oldu, müasir müstəqil Azərbaycan dövləti möhkəmləndi. Azərbaycan dahi liderinin rəhbərliyi altında tamamilə yeni inkişaf mərhələsinə qədəm qoydu, bir çox sahələri əhatə edən irimiqyaslı islahatların həyata keçirilməsinə başlandı. Ümummilli lider Heydər Əliyev ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində prioritetlərin müəyyən edilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının yenidən hazırlanması və digər bir sıra mühüm vəzifələrin öhdəsindən məharətlə gəldi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrkı illərdə Azərbaycanda köklü dəyişikliklər baş verdi. Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 2 may tarixli 1048 saylı qərarı və ulu öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 34 nəfər üzvdən ibarət tərkibi təsdiq olundu.

Ulu öndər Heydər Əliyev dövlətimizin konstitusiya quruculuğu tarixinə geniş şəkildə toxunmuş və qeyd etmişdir ki, müstəqil dövlətimizin ilk Konstitusiya layihəsinin hazırlanması tarixi nöqteyi-nəzərdən olduqca böyük və mühüm bir hadisədir. Əlbəttə Konstitusiya hər bir dövlətin möhkəm əsaslarla idarəçiliyi, hərtərəfli inkişafı, vətəndaşının hüquq və azadlıqlarının müdafiəsi üçün ən ali qanunlar toplusudur.

Ulu öndər Heydər Əliyev bu haqda qeyd etmişdir ki, bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yeni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir”. Bəli müdrik el atası, bununla da dövlət üçün, xalq üçün ən böyük uğuru əldə etdi və bü günümüzə müstəqil Azərbaycanı qorumaqla düşünülmüş, siyasət sərgilədi, fədakarlıq göstərdi.

Bu gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2025-ci ili “Konstitusiya və Suverenlik ili“ elan edilməsi haqqında Sərəncamı ilə həmin o tarixi anları bir daha dəyərləndirdi, Əsas Qanunun Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumaq, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatını prinsiplərinin sistemli şəkildə ehtiva etdiyini diqqətə çatdırdı.

Bu Sərəncam Azərbaycanda hakimiyyət orqanlarının təşkili, fəaliyyəti, cəmiyyət, vətəndaş hüquqlarının çərçivələrini müəyyən edən, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatı ilə bağlı mexanizmləri tənzim edən Suveren dövlətin Konstitusiyasının 30 illik ali məqsədini və əldə olunan nəticəsini bir daha diqqətə çatdırdı. Bütün bunlar insana, onun hüquqları və azadlıqlarına dövlət tərəfindən verilən dəyərin, suveren, müstəqil Azərbaycanın bariz göstəricisidir.

**Bəxtiyar VƏLİYEV,**
**Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru.**